**Azərbaycan Respublikasının**
**İnsan Hüquqları üzrə Müvəkkili**
**(Ombudsman)**




# Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Gəncə şəhərini ballistik raketlərlə atəşə tutması nəticəsində ciddi ziyan dəymiş tarixi-dini memarlıq abidələrinə dair aralıq

# H E S A B A T

**Bakı -2020**

## MÜNDƏRİCAT

1. Giriş.......................................................................................................3

2. Ermənistan ərazisindən ballistik raket hücumuna məruz qalmış Gəncə şəhəri və onun tarixi-dini və mədəni memarlıq abidələri barədə qısa məlumat..................5

3. Azərbaycanın Gəncə şəhərinin Ermənistan ərazisindən ballistik raketlərlə atəşə tutulması nəticəsində zədələnmiş tarixi-dini və mədəni memarlıq abidələrinin monitorinqi.......................................................................................................6

*3.1. Gəncə "İmamzadə Ziyarətgah" Kompleksi.....................................................6*

*3.2. Aleksandr Nevski adına Rus Pravoslav Kilsəsi.............................................11*

4. Nəticə.......................................................................................................16

# 1. GİRİŞ

Ermənistan tərəfindən Azərbaycana qarşı 30 ildən bəri davam etdirilən təcavüzkarlıq, işğalçılıq, terrorçuluq və vandalizm siyasətinin qurbanları təkcə mülki əhali deyil, həm də yaşı minillərlə ölçülən tarixi-dini, mədəni abidələrimiz və məbədlərimizdir.

İşğal altındakı torpaqlarımızda tarixi-dini abidələrin təqribi sayı 403-dür ki, onlardan da 67-si məscidlər, 144-ü məbədlər, 192-i isə ziyarətgahlardır.

Ermənistanın tarixi-dini abidələrimizə qarşı vandal təcavüzü müxtəlif istiqamətlərdə aparılır. Milli mənsubiyyəti və qədim tarixi, dini ənənəni özündə ehtiva edən abidələr tamamilə uçurulur. Bu abidələrin erməniləşdirilməsinə, özgələşdirilib dəyişdirilməsinə cəhd edilir. İşğal altındakı müsəlman dini kimliyinə aid olan abidələr, o cümlədən digər mədəniyyət göstəriciləri dağıdılır, təhqir olunur, məscidlərdə mal-qara və digər heyvanlar saxlanılır.[1] Eləcə də tarixi Alban məbədləri erməniləşdirilərək qriqoryanlaşdırılır.[2]

2020-ci il 27 sentyabr tarixindən başlayan Ermənistanın Azərbaycana qarşı növbəti hərbi hücumları nəticəsində mülki əhalinin məskunlaşdığı yaşayış məntəqələri, strateji əhəmiyyətli obyektlərlə yanaşı, tarixi-dini və mədəni abidələrin, o cümlədən ziyarətgah və qəbiristanlıqların qadadağan olunmuş silahlardan istifadə edilməklə intensiv şəkildə atəşə tutulması bunu bir daha sübut edir.

Ermənistan silahlı qüvvələri 04.10.2020-ci il tarixdə səhər saatlarında, 11.10.2020-ci il tarixdə gecə saat 02 radələrində və 17.10.2020-ci il tarixdə gecə saat 01 radələrində Gəncə şəhərinin əhalinin sıx məskunlaşdığı mərkəzi hissələrini əməliyyat-taktiki raket sistemlərindən istifadə etməklə Ermənistan ərazisindən qəsdən atəşə tutmuşdur.

Atılan kasetli raket mərmiləri nəticəsində dinc əhali arasında çoxsaylı tələfat və yaralanma halları baş vermiş, eyni zamanda bir çox mülki infrastruktur obyektləri dağıntılara məruz qalmış, dövlət tərəfindən mühafizə olunan tarixi-dini memarlıq abidələrindən olan Gəncə “İmamzadə Ziyarətgah” Kompleksinə və Gəncədəki Aleksandr Nevski adına Rus Pravoslav Kilsəsinə isə ciddi ziyan dəymişdir. Bu isə insan hüquqları sistemində mühüm yerlərdən birini tutan dini etiqad azadlığının kobud şəkildə pozulması kimi qiymətləndirilməlidir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Gəncə şəhərini ballistik raketlərlə atəşə tutması nəticəsində qədim tarixə malik dini-mədəniyyət abidələrinə də ciddi ziyan dəyməsi ilə əlaqədar dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, milli insan hüquqları təsisatlarına, həmçinin müxtəlif dini icma və konfessiyalara video-müraciət etmişdir.[3]

Təqdim olunan bu hesabat Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Gəncə şəhərini ballistik raketlərlə atəşə tutması nəticəsində ciddi ziyan dəymiş həmin tarixi-dini memarlıq abidələri ilə bağlı Ombudsman və milli insan hüquqları

[1] https://azertag.az/en/xeber/US_Medium_portal_publishes_article_on_Armenias_aggressive_policy_against_Azerbaijan-1530697
[2] https://azertag.az/en/xeber/Armenian_vandalism_against_historical_and_religious_monuments_of_Azerbaijan-1608221
[3] https://www.youtube.com/watch?v=5s5gmu1VVz8&feature=youtu.be

təsisatı olaraq tərəfimizdən həyata keçirilmiş monitorinqlər zamanı yerində toplanmış faktları özündə əks etdirir.



***Gəncədəki "İmamzadə Ziyarətgah" Kompleksi***



***Gəncədəki Aleksandr Nevski adına Rus Pravoslav Kilsəsi***

## 2. Ermənistan ərazisindən ballistik raket hücumuna məruz qalmış Gəncə şəhərinin tarixi-dini və mədəni memarlıq abidələri barədə qısa məlumat

Azərbaycanın bizim eradan əvvəl V əsrdə əsası qoyulmuş ən qədim şəhərlərindən biri olan və dəniz səviyyəsindən 400-450 m yüksəklikdə yerləşən Gəncə şəhəri ölkəmizin qərbində, paytaxt Bakı şəhərindən 375-km qərbdə, Kiçik Qafqazın şimal-şərq ətəyində Kür-Araz ovalığındakı Gəncə-Qazax düzənliyində yerləşir.

Azərbaycanın ayrılmaz hissəsi olan Gəncə şəhərinin tarixi ərazisi bəşər sivilizasiyasının ilkin meydana gəlmiş ərazilərindən biri olmuşdur. Elmi və arxeoloji tədqiqatlar nəticəsində Gəncənin təkcə Azərbaycanın deyil, bütövlükdə Şərqin elm və mədəniyyət beşiklərindən olması sübut edilmişdir.

Əhalisinin sayına görə (1 yanvar 2019-cu il tarixə olan məlumata əsasən Gəncə şəhərində əhalinin sayı - 334,0 min nəfər, əhalinin sıxlığı isə 1 $km^2$ 3036 nəfər təşkil etmişdir) respublikada ikinci, sənaye məhsulları istehsalına görə Bakı və Sumqayıtdan sonra üçüncü şəhərdir.

Gəncə şəhərində dövlət qeydiyyatına alınmış 195 daşınmaz tarix-mədəniyyət abidəsi mövcuddur. Həmin abidələrdən 1-i dünya əhəmiyyətli arxeoloji, 15-i ölkə əhəmiyyətli memarlıq, 3-ü ölkə əhəmiyyətli bağ-park, monumental və xatirə, 169-u yerli əhəmiyyətli memarlıq, 6-sı yerli əhəmiyyətli bağ-park, monumental və xatirə abidələri, 1-i dekorativ-tətbiqi sənət nümunəsidir. Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğu ərazisində yerləşən dünya əhəmiyyətli arxeoloji abidə kimi dövlət mühafizəsinə götürülmüş "Köhnə Gəncə" (orta əsrlər), ölkə əhəmiyyətli memarlıq abidələri olan İmamzadə kompleksi (XVII—XIX əsrlər), Uğurlu xan və Şah Abbas karvansaraları (XVII-XVIII əsrlər), Gəncə çayının sahilində yerləşən Gəncə qalası və qala divarları (XV—XVI əsrlər) şəhərin zəngin mədəni irsindən xəbər verir.

Gəncə şəhərinin döyüş əməliyyatları zonasından kifayət qədər uzaqda yerləşməsinə və mülki əhalinin sıx məskunlaşdığı ərazilərə yaxın yerlərdə hər hansı hərbi obyektin mövcud olmamasına baxmayaraq, Ermənistan Respublikası ərazisindən qəsdən və məqsədli şəkildə əməliyyat-taktiki ballistik raketlərindən dəfələrlə atəşə tutulması çoxlu sayda tələfat və yaralanma hallarının baş verməsi, mülki evlərin, inzibati binaların, sosial obyektlərin, tarixi-dini memarlıq abidələrinin və s. dağıntılara məruz qalması və ya ciddi şəkildə zədələnməsi ilə nəticələnmişdir.

Bütün bu hərbi hücumlar qəsdən törədilmiş vandalizm və terrorizm aktı, o cümlədən müharibə cinayəti hesab edilir və Ermənistanın hərbi-siyasi rəhbərliyi bu cinayətə görə tam məsuliyyət daşıyır.

## 3. Azərbaycanın Gəncə şəhərinin Ermənistan ərazisindən ballistik raketlərlə atəşə tutulması nəticəsində zədələnmiş tarixi-dini və mədəni memarlıq abidələrinin monitorinqi

Azərbaycanın qədim tarixə malik ikinci böyük şəhəri, döyüş əməliyyatları zonasından kifayət qədər uzaqda yerləşən, çoxsaylı tarixi-dini və mədəni abidələrin, müxtəlif turizm obyektlərinin olduğu Gəncə şəhəri Ermənistan ərazisindən əməliyyat-taktiki raket sistemlərindən istifadə edilməklə atəşə tutulmuşdur.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Ermənistan silahlı qüvvələrinin qadağan olunmuş silahlardan istifadə etməklə Gəncə şəhərini atəşə tutması və çoxsaylı insan tələfatı və dağıntıların baş verməsi ilə əlaqədar həyata keçirdiyi faktaraşdırıcı missiya çərçivəsində Gəncədə Ermənistan ərazisindən atılmış ballistik raket atəşi nəticəsində zərər dəymiş tarixi-dini abidələrə də baş çəkərək monitorinq aparmışdır.

Monitorinq zamanı Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğu ərazisindəki "İmamzadə Ziyarətgah" Kompleksinin və bir əsr yarım yaşı olan Gəncədəki Aleksandr Nevski adına Rus Pravoslav Kilsəsinin divarında mərmi partlayışı nəticəsində dərin çatların yarandığı, insanların ziyarət etdikləri yerdə olan çilçırağın qırılaraq yararsız hala düşdüyü, pəncərə şüşələrinin qırıldığı və beləliklə də hər iki tarixi-dini abidəyə ciddi ziyan dəydiyi müşahidə olunmuşdur. Xoşbəxtlikdən hadisə baş verən zaman orada ibadət etməyə gələn inanclı insanlardan heç kim olmadığına görə xəsarət alan olmamışdır.

Mülki əhali ilə bərabər tarixi-dini və mədəni abidələrin də atəşə tutulması onu göstərir ki, Ermənistan heç bir dinə, inanca hörmət bəsləmir və bu işğalçı dövlət üçün müqəddəs hesab olunan heç bir dini-mənəvi dəyər yoxdur.

### *3.1. Gəncə "İmamzadə Ziyarətgah" Kompleksi*

Bu tarixi-dini abidə Gəncə şəhərinin təqribən 7 kilometrliyində, Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğu ərazisində yerləşir. Kərpicdən tikilmiş türbənin ətrafında kiçik məscidlər, təkyələr, karvansara tipli evlər, alaqapı və köməkçi binalardan ibarət dini kompleks yaradılmış, onun ətrafına daş və kərpicdən hasar çəkilmişdir. Kompleksin içərisində xalq arasında "Göy günbəz", "Göy məscid", yaxud "Göy İmam" kimi tanınan türbə yerləşir. Ölkəmizin ən dəyərli memarlıq abidələrindən biri hesab edilən türbədə beşinci imam Məhəmməd Baqirin oğlu İbrahim dəfn olunmuşdur.



Memarlıq quruluşuna görə, türbənin XIV əsrin sonu – XV əsrin əvvəllərində, ətrafındakı kompleksin isə XVII əsrdə tikildiyi tarixi mənbələrdə qeyd olunur. Türbənin hündürlüyü 12 m, günbəzin hündürlüyü 2,7 m, diametri isə 4,4 m-dir. Türbənin günbəzinə mavi kaşıdan üzlük çəkildiyi üçün "Göy günbəz" adını almışdır. Bərdə və Naxçıvan imamzadə məscidlərində olduğu kimi İmamzadə türbəsi ilə Bərdə türbəsi, həmçinin Axsadanbaba türbəsi arasında memarlıq cəhətdən üslub yaxınlığı var. İmamzadə kərpicdən tikilmiş, rəngarəng kaşılı, kərpic örtüklü günbəzə malikdir. Ətrafında isə məscid, sərdabə və digər türbələr inşa olunmuşdur.



Sovet dövründə rəsmi dövlət qeydiyyatından keçmiş yeganə ziyarətgah olmuşdur. Dini abidə Gəncənin qədimliyini sübut etməklə yanaşı, şəhərin İslam aləmindəki yerini və nüfuzunu da göstərir.

Azərbaycanın tarixi-dini abidələrinin tamamilə yenidən qurulmasına və gələcək nəsillərə çatdırılmasına dövlət səviyyəsində çox həssaslıqla yanaşıldığından insanların inam və inanc yeri kimi üz tutduğu bu kompleksə xüsusi diqqət göstərmişdir. Belə ki, Azərbaycan Respublikasının Prezidentinin 1 mart 2010-cu il, 30 dekabr 2011-ci il, 24 yanvar 2012-ci il, 5 iyun 2013-cü il, 16

may 2014-cü il, 21 oktyabr 2014-cü il, 5 noyabr 2014-cü il, 9 aprel 2015-ci il, 9 sentyabr 2015-ci il və 9 fevral 2016-cı il tarixli sərəncamları ilə kompleksin təmiri və bərpasına ümumilikdə 49 milyon manat vəsait ayrılmışdır.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva və İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Ombudsmanlar Assosiasiyasının prezidenti, Türkiyə Respublikasının Baş Ombudsmanı Şərəf Malkoçun rəhbərlik etdiyi nümayəndə heyəti Ermənistan terrorunun qurbanına çevrilən Gəncə şəhərinə etdikləri birgə faktaraşdırıcı missiya səfəri çərçivəsində tarixi-dini abidələrin monitorinqini həyata keçirmişlər.



Bu şəkildən göründüyü kimi Gəncədəki "İmamzadə Ziyarətgah" Kompleksində insanların ziyarət etməsi üçün nəzərdə tutulmuş yerdə olan çilçıraq qırılaraq yararsız hala düşmüşdür.









Bu şəkillərdə Ermənistan silahlı qüvvələrinin ballistik raket atəşi nəticəsində tarixi-mədəni abidənin zədələnmiş tavan və divarları öz əksini tapmışdır.

 

Bu şəkillərdə Ermənistan silahlı qüvvələrinin ballistik raket atəşi nəticəsində tarixi-mədəni abidənin pəncərəsində və divarında yaranmış zədələr öz əksini tapmışdır.

Gəncədəki "İmamzadə Ziyarətgah" Kompleksi ilə bağlı video-məlumatla aşağıdakı link vasitəsilə tanış ola bilərsiniz:

**https://www.youtube.com/watch?v=pwm20pfgk7I**

### 3.2. Gəncədəki Aleksandr Nevski adına Rus Pravoslav Kilsəsi

Bu tarixi-dini abidə Gəncə şəhərində 1887-ci ildə tikilmişdir. Bakı yeparxiyası tabeliyində olan bu kilsə Azərbaycanın Gəncə şəhərinin Nizami rayonunda yerləşir. Azərbaycandakı mövcud pravoslav kilsələri arasında ən qədimlərindən biridir (Bakıdakı Mixaylo-Arxangelsk kilsəsindən sonra ikinci). Azərbaycan Respublikası Tarixi Abidələrinin Milli Reyestrinə daxil edilmişdir.

Məbəd 1887-ci ildə köhnə qəbiristanlığın yerində həm yerli pravoslavların, həm də müsəlmanların xeyriyyə vəsaiti hesabına ucaldılmışdır. Mənbələrə görə 1916-cı ildə bu məbəd bir kafedral statusuna sahib idi. Bina Bizans üslubunda plint kərpicdən inşa edilmişdir.



Kilsə 1931-ci ildə Sovet hökuməti tərəfindən bağlanmış və 1935-1938-ci illərdə bina muzey binası kimi istifadə edilmişdir. Daha sonra muzey başqa bir binaya (məscidə) köçürülmüş və kafedral anbar kimi istifadə olunmuşdur.

1946-cı ildə məbəd Rus Pravoslav Kilsəsinə qaytarılmışdır. Kilsənin qədim interyerindən müxtəlif ikonalar günümüzə qədər gəlib çıxmışdır. Bunlar arasında müqəddəs Aleksandr Nevski və müqəddəs Mariya Maqdalena adına ikonları xüsusilə qeyd etmək lazımdır. Məbəddə ibadət mərasimləri altıncı və bazar günləri, həmçinin pravoslav bayramlarında keçirilir.

1997-ci ildə kilsənin yaradılmasının 110 illiyi qeyd olunmuşdur. 2017-ci ildə kilsə tikilməsinin 130 illiyi münasibətilə Azərbaycan dövləti tərəfindən təmir olunmuşdur.




Bu şəkillərdə Ermənistan silahlı qüvvələrinin ballistik raket atəşi nəticəsində tarixi-dini abidənin tavan hissəsində yaranmış çatlar öz əksini tapmışdır.



Bu şəkil Ermənistan silahlı qüvvələrinin ballistik raket atəşi nəticəsində tarixi-dini abidənin divarında yaranmış çatları əks etdirir.



Şəkildə Ermənistan silahlı qüvvələrinin ballistik raket atəşi nəticəsində tarixi-dini abidənin fasad hissəsində yaranmış zədələr öz əksini tapmışdır.



Şəkildə Ermənistan silahlı qüvvələrinin ballistik raket atəşi nəticəsində tarixi-dini abidənin dam hissəsində yaranmış zədələr öz əksini tapmışdır.

Gəncədəki Aleksandr Nevski adına Rus Pravoslav Kilsəsi ilə bağlı video-məlumatla aşağıdakı link vasitəsilə tanış ola bilərsiz:

**https://www.youtube.com/watch?v=8yNShnWotRs**

# 4. NƏTİCƏ

Monitorinq əsasında müəyyən edilmiş faktlar bir daha təsdiq edir ki, sülh və insanlıq əleyhinə törətdiyi müharibə və terror cinayətlərinə görə bu günə qədər beynəlxalq səviyyədə hüquqi, siyasi və iqtisadi baxımdan heç bir cəza almaması, sanksiyalara məruz qalmaması nəticəsində Ermənistan Respublikası yeni cinayətlər törətməkdə davam edir.

Hesabatda qeyd olunduğu kimi, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın qədim şəhəri olan Gəncəni Ermənistan ərazisindən qadağan olunmuş silahlardan atəşə tutması nəticəsində mülki əhali arasında çoxsaylı tələfat və yaralanma halları baş vermiş, mülki obyektlər dağıntılara məruz qalmış, o cümlədən tarixi-mədəni abidələrimiz ciddi zədələr almışdır. Bu isə Ermənistan Respublikasının öz təcavüzkar və vandalizm siyasətindən əl çəkmədiyini və münaqişənin dinc yolla həll edilməsində maraqlı olmadığını bir daha aydın şəkildə göstərir.

Azərbaycan tərəfindən müvafiq beynəlxalq təşkilatlar vasitəsilə edilən çoxsaylı xəbərdarlıqlara baxmayaraq, Ermənistan mülki əhalini və müxtəlif infrastruktur obyektlərini, həmçinin tarixi-dini və mədəni abidələri qəsdən və məqsədli şəkildə hədəfə almaqla atəşə məruz qoyur.

Təcavüzkar Ermənistan Respublikası Azərbaycanın tarixi-dini və mədəni irs mərkəzi olan qədim Gəncə şəhərinə ballistik raket zərbələri endirməklə təkcə Azərbaycanı deyil, eyni zamanda dünya mədəni irsini, ümumbəşəri dəyərləri də hədəf aldığını və vandalizm siyasətindən əl çəkmək istəmədiyini nümayiş etdirir.

Ermənistandan fərqli olaraq Azərbaycan Respublikası çoxmillətli, tolerant, multikultural bir dövlətdir və burada müxtəlif dinlərə mənsub olan insanlar da dostluq və qardaşlıq şəraitində birgə yaşayır.

Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınmışdır. Ölkəmizdə inanclı insanların ibadət məkanları kimi məscidlərlə yanaşı katolik və pravoslav kilsələri, yəhudi sinaqoqları fəaliyyət göstərməkdədir. Azərbaycanda dinlərarası dialoq və tolerantlığın dünyanın bir çox polietnik regionları üçün nümunə olan xüsusi modeli formalaşmışdır.

Ermənistanın qədim Gəncəyə raket zərbələri endirməsi nəinki Azərbaycanı, eləcə də dünya mədəni irsini hədəfə aldığını və uzun illərdən bəri davam etdirdiyi vandalizm siyasətinin əhatə dairəsini bir qədər də genişləndirdiyini nümayiş etdirir. Ermənistan hərbi-siyasi rəhbərliyinin Gəncə şəhərinin qadağan olunmuş silahlardan atəşə tutulması ilə bağlı verdiyi göstərişlər onların vandalizm siyasətini açıb göstərməklə yanaşı, Ermənistanın təhlükəli bir terror ölkəsi olduğunu təsdiq edir.

Dünya əhəmiyyətli tarixi-dini memarlıq abidəsi olaraq əsrlərdən bəri milyonlarla zəvvarın və inaclı insanların ziyarətgahına, habelə istirahət və turizm mərkəzinə çevrilmiş bir məkan kimi tanınan Gəncə şəhərində yerləşən “İmamzadə Ziyarətgah” Kompleksinin və Aleksandr Nevski adına Rus Pravoslav Kilsəsinin də Ermənistan ərazisindən əməliyyat-taktiki raket sistemlərindən istifadə edilməklə atəşə tutulması ilə əlaqədar ciddi ziyan dəyməsi Ermənistan dövlətinin vandalizmə,

işğalçılığa, terrorçuluğa əsaslanan cinayətkar siyasət həyata keçirdiyini bir daha sübüt edir.

Bu isə bir daha onu göstərir ki, Ermənistan beynəlxalq humanitar hüququn, o cümlədən "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" UNESCO-nun 1954-cü il Haaqa Konvensiyası, "Dünya mədəni və təbii irsin mühafizəsi haqqında" UNESCO-nun 1972-ci il Konvensiyası, Müharibə zamanı mülki şəxslərin müdafiəsi ilə bağlı 1949-cu il Cenevrə Konvensiyası, "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyası və digər beynəlxalq hüquq normalarını kobud şəkildə pozmaqla Azərbaycana məxsus tarixi-dini və maddi-mədəni abidələrin qəsdən məhv edilməsinə, beləliklə də insan hüquqları sistemində mühüm yerlərdən birini tutan dini etiqad azadlığının kobud şəkildə pozulmasına yönəlmiş vandalizm siyasətini davam etdirir.

Azərbaycanın tarixi-dini və mədəni abidələri Ermənistan tərəfindən davam etdirilən müharibə cinayətlərinin qurbanına çevrilir.

Müsəlmanların ibadət yeri olan məscidlərdə heyvanların saxlanılması Ermənistan Respublikasının bəşəri dəyərlərə olan mənfi münasibəti ilə yanaşı, xalqımızın, bütövlükdə müsəlman dünyasının dini dəyərlərinə hörmətsizlikdir və bu beynəlxalq səviyyədə hüquqi qiymətini almalıdır.

Bununla əlaqədar sivil dünya dövlətlərinə və xalqlarına, beynəlxalq təşkilatlara, milli insan hüquqları təsisatlarına, həmçinin müxtəlif dini icma və konfessiyalara müraciət edərək Ermənistanın bəşəri dəyərlərə qarşı bu cür mənfur əməllərini pisləməyə, milli, mənəvi, dini terroru həyata keçirən, tarixi-dini və mədəni abidələri məhv edən, insan hüquq və azadlıqlarını kobud şəkildə pozaraq müharibə cinayətləri törədən işğalçı Ermənistan dövlətinin beynəlxalq hüquqi məsuliyyətə cəlb edilməsi istiqamətində ədalət və insanlıq naminə ciddi səy göstərməyə çağırırıq.




**Azərbaycan Respublikasının**
**İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)**

**Web sayt:** www.ombudsman.az

**Facebook səhifəsi:** @ombudsman.az

**Twitter səhifəsi:** @az_ombudsman

**Çağrı Mərkəzi:** (012) 916

Bakı şəhəri, Üzeyir Hacıbəyli 80, Hökumət evi, II Ala qapı
Tel/Fax: (+99412) 493 74 22, (+99412) 498 23 65
ombudsman@ombudsman.gov.az
apparat@ombudsman.gov.az